ESPLANADE
MARKET SOLUTIONS

The Jaycees Building, Stoney Ground,
Kingstown VC0100,
Saint Vincent and the Grenadines
e-mail: info@esplanade-ms.com

# Cinayət yolu ilə əldə edilmiş vəsaitlərin leqallaşdırılmasına qarşı mübarizə üzrə Brokerin siyasəti

Esplanade Market Solutions qanunsuz əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılmasını qəbul etmir və çirkli pulların yuyulması və terrorçuluq fəaliyyətinin maliyyələşdirilməsi ilə məşğul olan şəxslərlə mübarizəni dəstəkləyir.

Esplanade Market Solutions cinayət yolu ilə əldə olunmuş vəsaitlərin leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında Qanunlara riayət etmək öhdəliyini öz üzərinə götürür. Çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsi ilə mübarizədə dövlət orqanlarına dəstək üçün bütün maliyyə təşkilatları hesab sahibini eyniləşdirən məlumatları toplamağa, yoxlamağa və saxlamağa borcludur. Bu məqsədlə Esplanade Market Solutions şirkəti cinayət yolu ilə əldə olunan gəlirlərin leqallaşdırılmasına və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə üzrə öz daxili siyasətini işləyib hazırlamışdır (bundan sonra — «AML siyasəti»).

Mövcud qanunvericiliyə uyğun olaraq Esplanade Market Solutions onun biznesinin çirkli pulların yuyulması və ya terrorizmin maliyyələşdirilməsi məqsədilə istifadə olunmadığına əmin olmağa imkan verən aşağıdakı tədbirləri görür:

- müştərilərin şəxsiyyətinin eyniləşdirilməsi və müvafiq qaydada yoxlanılması;
- eyniləşdirmə məlumatlarına əsasən hesabatın aparılması;
- çirkli pulların yuyulmasının və terrorizmin maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə daxili nəzarət, risklərin qiymətləndirilməsi və risklərin idarəolunması;
- öz xarakterinə görə xüsusilə həssas sayıla biləcək və çirkli pulların yuyulması və ya terrorçuların maliyyələşdirilməsi ilə bağlı ola biləcək hər bir tranzaksiyanın, o cümlədən xüsusilə mürəkkəb və qeyri-adi dərəcədə iri tranzaksiyaların, eləcə də aşkar "iqtisadi" və ya "qanuni" məqsədləri olmayan digər qeyri-adi tranzaksiya sxemlərinin ətraflı nəzərdən keçirilməsi;
- Esplanade Market Solutions əməkdaşlarının çirkli pulların yuyulması ilə mübarizə üzrə qanunvericilik, daxili norma və qaydalar xüsusunda məlumatlandırılması;
- çirkli pulların yuyulması və ya terrorizmin maliyyələşdirilməsi, habelə onların idarəolunması ilə bağlı ola biləcək tranzaksiyaların müəyyən edilməsi vərdişlərinin qazanılması məqsədilə əməkdaşların və nümayəndələrin daima təlimatlandırılması.

Başa düşmək lazımdır ki, əgər Esplanade Market Solutions şirkəti Müştərinin nümayəndəsi haqqında bütün tələb olunan, düzgün və ətraflı doldurulmuş sənədləri almayıbsa, eləcə də bütün nəzərdə tutulmuş daxili yoxlamaları (o cümlədən, Müştərinin çirkli pulların yuyulması ilə bağlı bütün eyniləşdirmə yoxlamalarını və onun maliyyə vəziyyətinin etibarlılığına dair yoxlamanı) aparmayıbsa, ondan hər hansı fiziki və ya hüquqi şəxsi öz Müştərisi qismində qəbul etmək tələbini qoymaq düzgün deyil (və ola bilsin ki, Esplanade Market Solutions mövcud qaydaları rəhbər tutaraq belə bir şəxsi heç qəbul da edə bilməyəcək).

Esplanade Market Solutions şirkətində hesab açarkən Müştəri aşağıdakı öhdəliklər öz üzərinə götürür:

- Müştəri cinayət yolu ilə əldə olunan gəlirlərin leqallaşdırılmasına qarşı mübarizə üzrə bütün qüvvədə olan qanunlara riayət etməyi öhdəsinə götürür;

The Jaycees Building, Stoney Ground,
Kingstown VC0100,
Saint Vincent and the Grenadines
e-mail: info@esplanade-ms.com

- Müştəri təsdiq edir ki, keçmişdə, hazırda və ya gələcəkdə hesab balansının artırılması üçün istifadə olunmuş vəsaitlərin qeyri-qanuni mənbədən əldə olunması, cinayət yolu ilə əldə olunan gəlirlərin leqallaşdırılması, yaxud mövcud qanunvericiliyə və ya hər hansı beynəlxalq təşkilatın sanksiyasına əsasən qadağan edilən digər hüquqazidd fəaliyyət ilə hər hansı bağlılığının olması xüsusunda onun məlumatı və ya şübhəsi yoxdur;
- Müştəri təsdiq edir ki, investisiya qoyuluşlarından əldə olunan gəlirin qanunsuz fəaliyyətin maliyyələşdirilməsi üçün istifadə olunacağına dair onun hər hansı məlumatı və ya şübhəsi yoxdur;
- Müştəri Esplanade Market Solutions şirkətinin qanunsuz yolla əldə edilmiş vəsaitlərin leqallaşdırılmasına qarşı mübarizəyə dair mövcud qanunvericiliyə və tələblərə əməl etmək baxımından sorğusunu zəruri hesab edəcəyi istənilən informasiyanı dərhal ona təqdim etməyə razıdır.

Broker hər bir müştəri ilə bağlı potensial risk səviyyəsinə uyğun olaraq Müştərilərin şəxsiyyətinin ilkin və cari yoxlamasını aparmaq hüququna malikdir. Broker hər bir Müştəridən Müştərinin şəxsiyyətini təsdiq edən minimum informasiyanın təqdim olunmasını tələb etmək və yoxlama üsullarını və nəticələrini göstərməklə bu informasiyanı özündə saxlamaq hüququna malikdir. Esplanade Market Solutions müstəqil şəkildə və/və ya Müştərinin dəstək mərkəzi vasitəsilə Müştərinin eyniləşdirilməsi prosesində aşkar edilən hər hansı uyğunsuzluqlar və ya şübhələr barədə onu (Müştərini) məlumatlandırmağı öhdəsinə götürür.

Eyniləşdirmə məlumatlarının məcburi toplusuna daxildir:

1. Müştərinin tam adı;
2. Müştərinin doğum tarixi;
3. Müştərinin vətəndaşlığı;
4. Müştərinin eyniləşdirmə nömrəsi;
5. Müştərinin daimi yaşayış yeri /olduğu yer;
6. Müştərinin peşəkar fəaliyyət növü.

Yuxarıdakı məlumatların həqiqiliyinin təsdiq edilməsi və yoxlanılması üçün, Esplanade Market Solutions məcburi qaydada (lakin bu siyahı ilə kifayətlənməyərək) Müştəridən sorğu edir:

1. Müştərinin hazırkı pasport /şəxsiyyət vəsiqəsi;
2. Müştərinin milli nümunəli şəxsiyyət vəsiqəsi (sürücülük vəsiqəsi, hərbi bilet və s.);
3. müştərinin hal-hazırkı daimi yaşayış ünvanını təsdiq edən sənəd (kommunal xidmətlər üçün ödəniş haqqında hesab, bank hesabının vəziyyəti barədə çıxarış və s.);
4. yerli qanunvericiliklə nəzərdə tutulmuş milli nümunəli təsis sənədləri toplusu (hüquqi şəxslər və fərdi sahibkarlar üçün).

Həmçinin bunu da başa düşmək lazımdır ki, çirkli pulların yuyulması riski yüksək olan müəyyən ölkələrdə yaşayan istənilən şəxsi və ya şəxsləri öz Müştəriləri sırasına qəbul etməzdən qabaq onların maliyyə vəziyyətinin etibarlılığı ilə bağlı əlavə tələblər daxil etmək hüququnu özündə saxlayır.

Müştərinin eyniləşdirilməsi və maliyyə vəziyyətinin etibarlılığı üzrə yoxlamaların keçirilməsi

The Jaycees Building, Stoney Ground,
Kingstown VC0100,
Saint Vincent and the Grenadines
e-mail: info@esplanade-ms.com

zamanı Esplanade Market Solutions Müştərinin şəxsiyyətinin yoxlanılmasının müxtəlif prosedurlarını tətbiq edir, bunun üçün Müştəridən digər tələblərlə yanaşı fotoşəkil üzrə eyniləşdirmədən keçmək tələb olunacaqdır. Bəzi hallarda Broker bu məlumatların həqiqiliyinin müvafiq üçüncü tərəf tərəfindən yoxlanılmasını tələb edə bilər.

Bundan başqa, Esplanade Market Solutions üçüncü tərəflərin nağd vəsaitlərini, pul köçürmələrini, tranzaksiyalarını, valyutadəyişmə məntəqələrindən köçürmələri, Western Union («Vestern Yunion») köçürmələrini və ya analoji köçürmələri qəbul etmir. Esplanade Market Solutions müştəriyə aidiyyəti olmayan hesablardan daxil olan depozitləri və ya vəsaitlərin üçüncü şəxslər tərəfindən çıxarılmasının həyata keçirilməsini rədd etmək hüququnu özündə saxlayır.

Esplanade Market Solutions həmçinin müvafiq dövlət orqanlarına və digər əlaqədar təşkilatlara aşkar edilmiş pul vəsaitlərinin daxili köçürmələrindən qanunsuz və ya təyinatından kənar istifadə halları barədə xəbər vermək hüququnu özündə saxlayır.

Bu tələblərə riayət Esplanade Market Solutions şirkətinin və onun müştərilərinin müdafiəsi üçün vacibdir. Göstərilən tələblərlə bağlı hər hansı suallar/şərhlər olduqda support@esplanade-ms.com ünvanına müraciət etməyinizi xahiş edirik.